**Müasir Azərbaycan Psixoloqları İctimai Birliyi**

PSİXOLOGİYA Elmi-Tədqiqat İNSTİTUTU

***22 oktyabr 2022-ci il, "Əbdül Əlizadə fenomeni: Azərbaycan psixologiyasının tarixi və inkişaf perspektivləri" Respublika elmi-praktik konfransı***
***Təşkilat komitəsi ilə əlaqə:***
**info@psixologiyainstitutu.az**

*Tezislərin tərtibi qaydaları*

- Sağ küncdə müəllifin adı (normal qaydada, Bold şriftlə, ölçü - 12), soyadı (böyük hərflərlə, Bold şriftlə, ölçü - 12).
- 1 sətir aşağıda: iş yeri və ya oxuduğu, yaxud doktorantı/dissertantı olduğu ali məktəbin, fakültənin/ yaxud ixtisasın adı, kursu (Bold İtalic hərflərlə, ölçü - 12)
- 1 sətir aşağıda: e-mail ünvanı (adi şriftlə, ölçü - 12)
- Mövzunun adı 1 sətir aşağıda, ortada yazılmalıdır (Bold, böyük hərflərlə, ölçü - 12).
- Yalnız bakalavr və magistrantlar üçün*:* 1 sətir aşağıda, sağ tərəfdə: elmi rəhbər sözü (İtalik hərflərlə), elmi rəhbərin elmi dərəcəsi (fəlsəfə doktoru/elmlər doktoru), adı, soyadı, işlədiyi ali məktəbin adı və elmi adı (dosent/professor) yazılmalıdır (adi şriftlə)
- 1 sətir aşağıda mövzuya aid 3-5 açar söz yazılmalıdır (tezisin yazıldığı dildə, İtalik hərflərlə).
- Açar sözlərsiz tezislərə baxılmayacaq!
-1 boş sətirdən sonra əsas mətn yığılmalıdır. Mətn Word proqramında yığılmalıdır: kağızın formatı A4; sənədin formatı - doc.; docx.; şrift – Times New Roman (digər şriftlərlə yığılmış tezislər qəbul olunmayacaq; ölçü - 14; sətirlərarası interval -1).
- Səhifənin ölçüləri: sol – 3 sm, yuxarı, aşağı və sağ – 2 sm.
- Həcmi 1-3 səhifə (tezisin və müəllifin, oxuduğu/ doktorantı, dissertantı olduğu ali məktəbin və fakültənin/ müəssisənin adı, müəllifin e-mail ünvanı, elmi rəhbərin adı, açar sözlər və ədəbiyyat nəzərə alınmamaqla) ola bilər.
- Tezislər azərbaycan, türk, rus və ingilis dillərində qəbul olunur (açar sözlər də həmçinin).
- Mövzudan asılı olaraq tezisdə istinadlar verilməyə bilər. Lakin sonda tezisin hazırlanması üçün istifadə edilmiş ədəbiyyat siyahısı mütləq göstərilməlidir (əlifba sırası ilə). Ədəbiyyat siyahısı olmayan tezislərə baxılmayacaq!
- Tezislər aşağıdakı ünvana göndərilməlidir: ***info@psixologiyainstitutu.az***
- Konfransa təqdim olunmuş tezislərin təşkilat komitəsi tərəfindən qəbul olunması halında toplu şəklində çap versiyasının hazırlanması nəzərdə tutulur. Tezislərin göndərilmə vaxtı bitdikdən sonra çap olunmaq üçün seçilən tezislər elan olunacaq, müəlliflər e-mail vasitəsilə məlumatlandırılacaqlar. Təşkilat komitəsi tərəfindən çapa məsləhət görülməyən tezislər çap olunmayacaqdır və bu haqda həmin əsərlərin müəlliflərinə məlumat veriləcəkdir.